# İstiqlal mücəvhəri - Hacı Kərim Sanılı



Sevindik NƏSİBOĞLU

*(Əvvəli ötən sayımızda)*

Çarizmin devrilməsi ilə əlaqədar yaranan əlverişli məqamdan uzaqgörənliklə istifadə edən Firidun bəy Köçərli Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Gəncəyə köçürmək qərarına gəlir. Lakin Gəncənin uzaq olmasından ehtiyat edən Firidun bəy məsələni təcili həll etmək üçün 1918-ci ildə Qazax qəza qubernatoru Hacı Kərim Sanılıya müraciət edir və Qori Seminariyasının Azərbaycan şöbəsinin Qazaxda yerləşdirilməsi üçün bina istəyir. Hacı Kərim Qazaxın məşhur xeyriyyəçilərindən olan Məşədi İbrahimin köməkliyi ilə bina ayırır. Heç bir təhsili və savadı olmayan, ancaq elmə, maarifə olduqca böyük əhəmiyyət verən Məşədi İbrahim bir iranlı tacirin Qazağın mərkəzində satışa qoyduğu 17 otaqdan ibarət yaraşıqlı mülkü 150 qızıl pula alıb Firidun bəy Köçərliyə bağışlayır. Bu haqda akademik Bəkir Nəbiyev qeyd etmişdir: "1918-ci ildə Zaqafqaziyada vəziyyətin ağırlığı nəticəsində Qori seminariyası artıq əvvəlki rəsmiyyətini itirir, günlərlə dərs keçilmir, ona görə Köçərli uzun illərdən bəri uğrunda çalışdığı məqsədinə nail olmaq üçün ciddi əməli işə keçir. 1918-ci ilin sentyabr ayında seminariyanın Azərbaycan bölməsinin tədris ləvazimatı və avadanlığı Qazaxa köçürülür. 1918-ci ildə vəziyyətlə əlaqədar Qazaxla Gəncə arasında əlaqə kəsildiyi üçün F.Köçərlinin Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin materiallarını gətirdiyi qatar Ağstafa stansiyasında dayanır. F.Köçərli Sanılıya müraciət etməli olur. Firudun bəyin təklifini məmnuniyyətlə qəbul edib dərhal on iki araba təşkil etdirib seminariyanın ləvazımatını Qazaxa gətirdib Məşədi İbrahimin binasında yerləşdirir və ona ciddi nəzarət etməklə maddi yardım da edir. Seminariyanın yerləşməsindən bir neçə gün sonra onu geri qaytarmaq üçün canişinlikdən üç nəfər nümayəndə gəlir. Bir saatdan artıq söhbətdən sonra razılıq əldə edilərək onlar hörmətlə yola salınır. Beləliklə, 1918-ci ildə F.Köçərlinin xahişi ilə H.K.Sanılı Qori müəllimlər seminariyasının Azərbaycan bölməsini Qazaxda yerləşdirdi". Hacı Kərim Sanılı təkcə müəllimliklə məşğul olmamışdır. Onun həm də pedaqogika tarixində böyük xidmətlərindən biri də yüksək keyfiyyətli dərsliklər yazmaq olmuşdur. O, keçən əsrin 20-ci illərində latın qrafikalı yeni əlifbanın yaradılmasında fəal iştirak etmiş, "Əlifba", "Böyüklər üçün əlifba" (1924), Ə.Seyidovla birgə "Türk əlifbası" (1927), "Üçüncü il" (1927), (təkrar nəşrləri 1929, 1930), "Türk əlifbası" (1930) və s. dərsliklərini tərtib etmişdir.

Rus, fransız və fars dillərini mükəmməl bilən Hacı Kərim Sanılı Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra da müəllim kimi fəaliyyətini davam etdirmişdir. Belə ki, 1922-ci ildə o, N.Nərimanovun təklifi ilə Bakıya köçüb 1922-ci ilin mayından 1924-cü ilin sonuna kimi Yeni Türk Əlifba Komitəsində Fərhad Ağazadə, Bəkir Çobanzadə, Xudadat Məlikaslanov, Mirzə Cabbar Məhəmmədzadə, Hüseyn İsrafilbəyov, Mirzə Hüseyn Camalzadə, Vəli Xuluflu, İdris Həsənli (Həsənov), Mənsur Qurbanzadə və başqaları ilə birgə çalışıb, savadsızlığı ləğvetmə kurslarında dərs demişdir.

Hacı Kərim Sanılı həmçinin sovet dövründə bir sıra məsul vəzifələrdə çalışmışdır. O, 1933-1935-ci illərdə Azərbaycan İstehlak-Kooperasiya İnstitutunda, eyni zamanda 1933-1936-cı illərdə Sovet Ticarəti İnstitutunun nəzdindəki işçi fakültəsində müəllim, 1936-1937-ci illərdə isə paytaxtın 25 saylı orta məktəbində rus dili müəllimi, , "Yeni kənd" jurnalının məsul katibi, Azərbaycan Kooperativ məktəbləri birliyində dərs hissə müdiri, Bakıda Kənd Təsərrüfatı İnstitutunda, Azərbaycan Sənaye İnstitutunda, Politexnik İnstitutunda, Azərbaycan Dövlət Elmi-tədqiqat İnstitutunda elmi işçi və Bakı xalq maarifi şöbəsində inspektor işləmişdir.

Hacı Kərim Sanılının ilk evliliyi Qazax qazisinin qızı Xuraman xanımla olmuşdur. Onların İslam adlı ilk övladları dünyaya gəlmişdir. Bundan başqa Zəkiyyə, Bəhram və Lətif adlı övladları da dünyaya gəlmişdir. İslam (15 yaşında) və Zəkiyyə o dövrdə geniş yayılmış xalyareya xəstəliyindən gənc yaşlarında vəfat etmişlər. Xuraman xanım da həmin xəstəlik səbəbindən dünyasını dəyişmişdir. Hacı Kərim Sanılı daha sonra Mahi Mənzar xanımla evlənmişdir.



Hacı Kərim Sanılı ədəbi yaradıcılığa 40 yaşında başlamışdır. Onun imzasına mətbuat səhifələrində yalnız 1918-ci ildən sonra təsadüf olunur. O, son dərəcə mürəkkəb, ağır və ziddiyyətli yaradıcılıq yolu keçmişdir. Ədib əsərlərini sadə, anlaşıqlı xalq dilində yazmışdır.

Hacı Kərim Sanılı barədə məlumat toplarkən onun **"Kəndlərimiz"** şeirini tapdım. Həmin şeiri oxuculara çatdırmağı ozumə borc bildim:

Çox gəzmişəm Azərbaycan elini,
Çox görmüşəm çaylarını, gölünü.
Çox düzlərdə ceyran kimi qaçmışam,
Çox dağları mən yel kimi aşmışam.
Bağlar gəzib çiçəyini dərərdim,
Bostanlarda al şamama görərdim.
Vaxtım olub Kərəm kimi coşmuşam,
Hərdən qalxıb mən Kür kimi daşmışam.
Kənd görəndə ağlım gəlib başıma,
Mat qalmışam bu kəndli qardaşıma,
Neyçün tikib hərə evi bir yanda?
Yaşarmı insan kənd olmayan yerdə.
Ev uzaq olmağı dursun qıraqda,
Kəndimizdə çoxdur özgə, azır da.
Gedib biri xəlvət küncə giribdir,
Biri özün kola-kosa veribdir,
Çıxıb biri dağların lap başına,
Quzğun kimi qonub dikin qaşına.
Keçi kimi qayalara dırmaşıb,
Dovşan kimi yeddi bələndən aşıb,
Bunlar azmış daha nələr qayırıb,
Çəpər çəkib evlərini ayırıb.
Xəndək qazıb qara tikan tökübdür,
Qala kimi böyük hasar çəkibdir.
Çox az görür bu külfəti o külfət,
Yoxdur aralıqda məhəbbət, ülfət.
Bir-birindən xam mal kimi döyükür,
Adam görmür, görən zaman da ürkür.
Adam gərək bir-biriylə danışa,
Qılığına, xəsiyətinə alışa.
İnsan olan insan kibi yaşıya,
Bir-birinin ağır yükün daşıya.
İndi deyim yavaş-yavaş qulaq as,
Təsdiq elə, sözlərimə barmaq bas.
Gör bu azar bizə hardan qalıbdır,
Kəndlərimizi kim bu dərdə salıbdır.
Çoxdan qalıb bilin bizə bu azar,
Bu dərdlərə ayrı-ayrı səbəb var:
-Biri bu ki, üç dörd yüz il irəli,
Babalarımız yaşarmışlar köçəri.
Saxlarmışlar onlar yalnız qoyun, mal,
Sevməzmişlər yanlarında qilü-qal.
Hər birisi çəkilərmiş bir yana,
Axtararmış ancaq örüş heyvana.
Qatıq yeyib, ayranını içərmiş,
Bütün ömrü çobanlıqla keçərmiş.
Çoban-çoluq hələ indi yenə də,
Ayrı gəzib gah dağda, gah binədə.
O günləri daha bizlər keçmişik,
Mədəniyyət şərbətini içmişik.
Hər nə qalıb çobanlıqdan, ataq biz.
Cəhd eləyib kulturaya çataq biz.

Hacı Kərim Sanılı ilə Əhməd Cavad arasında geniş əlaqə olub. Bir-birlərinin evinə qonaq gələrmişlər.

Mən bununla əlaqədar olan bir şəkili də məqaləyə daxil etmişəm. Mənim üçün möhtəşəm bir şəkili... Həmin şəkildə Azərbaycan ədəbiyyatının şirlərinərləri var. Həmin dühalar Xəlil İbrahim, Cəfər Cabbarlı, Seyid Hüseyn, Süleyman Rüstəm, Əhməd Cavad, Süleyman Sani Axundov, Hüseyn Cavid, Mirzə Cəlil də olmaqla Hacı Kərim Sanılıdır. Bu şəkil məni cuşa gətirdi, ilhamlandım və araşdırmamı davam etdim.

Sonralar Əhməd Cavadın da, Hacı Kərim Sanılının da seçilmiş əsərləri nəşr edildi. Lakin, Hacı Kərim Sanılının "Dağlarının başı qarlı" misrası ilə başlayan "Azərbaycan" şeiri səhvən Əhməd Cavadın kitabına daxil edilmişdir.Mülahizələrə görə, həmin şeir Hacı Kərim Sanılıya məxsusdur.

XX əsrdə Azərbaycan ədəbiyyatında ilk tarixi poema janrının əsasını Hacı Kərim Sanılı qoymuşdur. O, "Aran köçü", "Namus davası", "Zülmün sonu", "Novruz və Gülara", "Turut qaçaqları" poemalarının müəllifidir. Şairin ilk poeması olan "Aran köçü" 1924-ci ildə çap olunmuşdur. Bu əsərin mövzusu kəndlilərin aran-yaylaq məişəti ilə bağlı həyatından götürülmüşdür. "Aran köçü" o zamanki Azərbaycan poeziyasında öz forma və yazılış tərzinə görə yeni idi. Azərbaycan xalqının uzun əsrlərin sınağından çıxmış milli adət və ənənələri "Aran köçü" poemasında əks olunmuşdur.

Onun 1927-ci ildə yazdığı "Namus davası" poemasında XIX əsrin ortalarından başlayaraq, feodal mülkiyyəti və imtiyazlığının getdikcə qüvvətlənib nüfuzlu xanlıqlar formasında təsis olunduğu konkret bir dövrdən danışılır. Sanılının "Zülmün sonu" (1927) poemasında istismar dünyasının haqsızlıqları, acı rəzalətləri böyük bir nifrətlə əks olunmuşdur. Şairin "Zülmün sonu" poeması dövri mətbuat səhifələrində - "Şərq qadını", "Maarif və mədəniyyət", "Yeni kənd", "Kəndli qəzetəsi", "Yeni yol", "Kommunist" və s. jurnal və qəzetlərdə dərc olunmuşdur.

Həmçinin 1927-ci ildə qələmə aldığı "Oktyabr alovları" adlı almanaxda nəşr olunan "Novruz və Gülara" poemasında hər iki gəncin uşaqlıq illəri, sonrakı həyatları müfəssəl təsvir olunmuşdur. Şairin son poeması olan, "Turut qaçaqları" (1935) istər ideya, istərsə də sənətkarlıq baxımından onun poetik yaradıcılığının təkamülü sayılır. Bu poemanın bu qədər qüvvətli olması onunla izah edilir ki, Sanılı Şəki qəzasında müəllimlik etdiyi zamanlar qaçaqların həyatını, psixologiyasını dərindən öyrənmişdir.

***(Davamı var)***